# Seyran Səxavətin 70 illik yubileyi qeyd olundu

**Belə bir söz var: ”Əsl yazıçı qocalmaz, müdrikləşər, amma ruhu həmişə gənc qalar”. Azərbaycan ədəbiyyatının gənc ruhlu yazıçılarından olan Seyran Səxavət 70 illik müdriklik çağında qələmdaşlarını, dostlarını, oxucularını başına topladı. Azərbaycan Yazıçılar Birliyinin (AYB) ”Natəvan” klubuna yığışan, hətta sığışmayan Seyran Səxavətsevərlər milli ədəbiyyatımıza öz imzasını atmış yazıçının yubileyini qeyd etdilər.**



Yubiley tədbirini giriş sözü ilə açan AYB-nin sədri, xalq yazıçısı Anar ədəbiyyata şair kimi gəlmiş Seyran Səxavətin şeirlərinin də dillər əzbəri olduğunu, hətta gənclərin öz sevdiklərinə ithaf etdiklərini vurğuladı. Sonralar nəsrə üstünlük verən yazıçının öz üslubu, dili, təkrarolunmazlığı ilə daim oxucuların diqqət mərkəzində qaldığını dedi. AYB sədri Yazıçılar Birliyinin hədiyyələrini Seyran Səxavətə təqdim etdi.



”Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə Seyran Səxavəti həmişə öz kəskin qələmi ilə seçilən, sözünü, düşüncəsin çatdırmağı bacaran yazıçı kimi dəyərləndirdi: ”Əsərlərini həmişə öz dəstixətti ilə yazıb. Harda ləhcəni, harda ədəbi dili işlətməli olduğu gözəl bilib”.

Sabir Rüstəmxanlı tələbəlik xatirələrinə ”səyahət” etdi. İnstitut illəri, yataqxana xatirələri, o zamanın gənclərinin ədəbi mühiti, birgə iş yerinin qayğıları, şən zarafatları yenidən canlandı: ”İnsan gərək sevdiyi işlə, istedadı olduğu sahədə çalışsın. Yoxsa gördüyü işin dəyəri olmaz. Seyran Səxavət bu baxımdan xoşbəxt insandır. Həmişə işindən, yaradıcılıqdan necə zövq aldığını mən onunla çiyin-çiyinə işləyəndə bildim”.

Akademik Hatəm Quliyev Seyran Səxavətin həyatda məhrumiyyətlər görməsinə baxmayaraq həmişə nikbin yazdığını diqqətə çatdırdı. Bununla belə, hər an xalqının dərdinə yandığını, həyat çətinliklərinin onu sındırmadığını dedi.

Nəriman Həsənzadə Seyran Səxavəti həm oxucuların, həm də yazıçıların sevdiyini, oxuduğunu vurğuladı. Onun istedadlı şair, yazıçı olmağı ilə yanaşı, həm də yaxşı natiq olduğunu dedi: ”Seyran Səxavətin simasından həmişə doğmalıq, səmimiyyət yağıb. Seyranın yanında adam darıxmır, onu öz əzizi bilir. Seyran Səxavətin bütün romanlarında bizlər varıq. Hər birimiz özümüzü görə bilirik”.

Xalq artisti, sevilən müğənni Flora Kərimova çıxışıyla həm özü doluxsundu, həm də tədbir iştirakçılarını kövrəltdi. Doğma Qarabağ, onun həsrətinin, Şuşa nisgilinin, analı xatirələrin qəlbini göynətdiyini, Seyran Səxavətin onun ailəsinə olan sayğısı, sevgisinin həmişə duyğularını riqqətə gətirdiyini vurğuladı: ”Seyran Səxavəti sevənlər arasında mən birincilər sırasındayam. Mən ona təkcə yaxşı yazıçını sevən kimi deyil, həm də insan kimi çox bağlıyam”.

Daha bir sənətkar, xalq artisti Fuad Poladov illərə söykənən dostluqlarından danışdı. Seyran Səxavətlə qonşuluğu, birgə gəzintiləri, söhbətlərinin həmişə onun ürəyində ayrıca bir yeri, zövqü olduğunu vurğuladı.

Arzular aşıb-daşır, sevənlər çox, zamansa öz sözünü deyir. Onu sevənlərin ürəyi dolu olsa da zaman kəsiyinə sığan bu görüşün çərçivəsində hər kəs duyğularını özünəməxsus anlatdı. Dramaturq Əli Əmirli, Bakı Dövlət Universitetinin professoru Sona Çərkəz, millət vəkili Fazil Mustafa və başqaları çıxış edib öz ürək sözlərini, xatirələrini bölüşdülər. Seyran Səxavətin hər şeydən öncə yaxşı insan, vətəndaş, dost olduğunu dedilər. Hədiyyələrini təqdim etdilər.

**Sonda Seyran Səxavət tədbirdə iştirak edənlərə öz təşəkkürü bildirdi, yeni-yeni əsərləri ilə onları sevindirəcəyini vəd etdi.**

**Şəfiqə ŞƏFA**